COP29 Baku Azerbaijan

2024 | YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ

Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi Botanika İnstitutu

Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyi

Biomüxtəlifliyin dayanıqlığının təmin edilməsində yeni çağırışlar (COP29)

YAŞIL DÜNYA VƏ İNSAN SAĞLAMLIĞI

Beynəlxalq Elmi-Praktiki Konfrans

3-4 iyun 2024
Naxçıvan şəhəri

MÜNDƏRİCAT

Naxçıvan Muxtar Respublikasının bioloji müxtəlifliyinin müasir vəziyyəti və istifadə imkanları

Talıbov T.H., İbrahimov Ə.M., Seyidova H.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA FABACEAE LINDL. FƏSİLƏSİNİN NADİR VƏ MƏHVOLMA TƏHLÜKƏSİNDƏ OLAN NÖVLƏRİ

İbadullayeva S.C., Zülfüqarova P.V., Mürsəl N. AZƏRBAYCAN FLORASINDA APIACEAE LINDL. FƏSİLƏSİNİN ENDEMİKLİYİ

Quliyev Ə.G. COP 29 - AZƏRBAYCANDA QLOBAL İQLİM DƏYİŞMƏSİNİN İLKİN TƏSİRİ NAXÇIVANDA ÖZÜNÜ GÖSTƏRMƏKDƏDİR

Talıbov T.H., Məmmədova Ü.M. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ PİŞİKOTULAR YARIMFƏSİLƏSİNİN MÜHAFİZƏ STATUSLU NÖVLƏRİ

Əsədov E.S. BİOMÜXTƏLİFLİYİN FORMALAŞMASINDA BAL ARILARININ ROLU

Ələsgərova Ə.N. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BİTKİ ÖRTÜYÜNDƏ YOVŞAN CİNSİ NÖVLƏRİNİN ROLU VƏ BİOEKOLOJİ XÜSUSİYƏTLƏRİ

Mehdiyeva N.P. NAXÇIVAN FLORASININ DƏRMAN POTENSİALI

Nəbiyeva F.X. ARAZBOYU DÜZƏNLİKLƏRİN FLORASI VƏ BİTKİLİYİNİN MÜASİR VƏZİYYƏTİ

Mustafayeva İ.R., Seyidov M.M., Qasımov H.Z. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILMIŞ ZİRİNC (*BERBERIS* L.) CİNSİNƏ DAXİL OLAN NÖVLƏR VƏ YABANI BİTKİ MƏHSULLARI

Alverdiyeva S.M., Sohrabi M. NAXÇIVAN ƏRAZİSİNDƏ RAST GƏLİNƏN MARAQLI ŞİBYƏ NÖVÜ

Mövsümova N.V., Öztürk M. NAXÇIVAN MR DUZDAĞ ƏRAZİSİ FLORASININ NADİR VƏ İTMƏK ÜZRƏ OLAN NÖV MÜXTƏLİFLİYİNİN MONİTORİNQİ

Muxtarova Ş.C., Qəhramanov S.H., Muradova A.B., Mamanazarova K.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONTİNENTAL SUTUTARLARINDA SAPROFİT YOSUNLARIN YAYILMASI

Məmmədova A.V., Batan N. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ BƏZİ NADİR YARPAQGÖVDƏLİ MAMIR NÖVLƏRİ VƏ ONLARIN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rəhimova S.Ə., Hidayətzadə F. NAXÇIVAN MR ƏRAZİSİNDƏ BİTƏN BƏZİ ALÇA SORTLARININ ANTİOKSİDANT AKTİVLİYİNİN TƏDQİQİ

Xudaverdiyeva S.F. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN EUPHORBIACEAE JUSS. FƏSİLƏSİNİN FAYDALI NÖVLƏRİNİN TƏSNİFİ

Gurbanova L.Z. IMPORTANCE OF PLANTS WITH DYE CHARACTERISTICS

Məmmədova A., Süleymanova Z. NACl STRESİ ŞƏRAİTİNDƏ YUMŞAQ BUĞDA GENOTİPLƏRİNİN KÖK VƏ YARPAQ TOXUMALARINDA *TAHKT2;3* GENİN TRANSKRİPSİYA XÜSUSİYYƏTLƏRİ

Husuyeva A.M., Husuyev E.K. THE GENUS *LEPIDIUM* L. IN FLORA OF AZERBAIJAN: BIOLOGICAL FEATURES AND PROSPECTS FOR USE

Bayramova S.S. USAGE OPPORTUNITIES OF THE GENUS EUPHRASIA

Sadıqova K.Ə., Hüseynova S.İ. *GLYCYRRHIZA GLABRA* L. NÖVÜNÜN BOTANİKİ TƏSVİRİ VƏ ƏHƏMİYYƏTİ

Məmmədli T.B. TÜKCÜKLÜ GÜLBABA (*LEONTODON HISPIDUS*) BİTKİSİNİN BİOEKOLOJİ VƏ YEM XÜSUSİYYƏTLƏRİ

Novruzova L.A., Hüseynova Ə.E. *INULA HELENIUM* BİTKİSİNİN XALQ TƏBABƏTİNDƏ İSTİFADƏSİ

Сулейманова Ш.Т. ПОЛЕЗНЫЕ РАСТЕНИЯ ФЛОРЫ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Dərman, aromatik və qida bitkilərinin biokimyası, biotexnologiyası və bioloji fəal maddələr

Məmmədov E.N. EV SU QUŞLARININ BƏZİ HELMİNTOZLARINA QARŞI ANTİHELMİNT TƏSİRLİ BİTKİLƏRİN TƏTBİQİ

Zülfili J.E., Babayev H.Q ŞİRİN BİYAN (*GLYCYRRHIZA GLABRA* L.) BİTKİSİNİN AZƏRBAYCANDA YAYILMASI, EHTİYATI VƏ BİOLOJİ FƏAL MADDƏLƏRİ

Mustafayeva L.Ə. NÖVLƏRİN TƏYİNİNDƏ KİMYƏVİ ANALİZLƏRİN ROLU

Bağırova S.B., Əşrəfova Ş.F. *PINUS ELDARICA* MEDW. NÖVÜNDƏ FOTOSİNTEZ DİNAMİKASINA İQLİM DƏYİŞKƏNLİYİNİN TƏSİRİ

Əkbərova Ç.M., Məmmədova A.O., Əsədova K.A. ACI DOVŞANKƏLƏMİ (*SEDUM ACRE* L.) NÖVÜNÜN MÜALİCƏVİ XÜSUSİYYƏTLƏRİ

Orucova T.Y. *HYLOTELEPHIUM CAUCASICUM* YARPAQLARINDA TİTİRLƏNƏ BİLƏN ÜMUMİ TURŞULUĞUN MİQDARININ GÜNDƏLİK DƏYİŞMƏ DİNAMİKASI

Salayeva Z.K. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILAN *ASPARAGUS OFICINALIS* L. NÖVÜNÜN ETNOBOTANİKİ XÜSUSİYYƏTLƏRİ

Mustafayeva S.C. *TANACETUM* L. CİNSİNİN BƏZİ EFİR YAĞLI NÖVLƏRİ

EV SU QUŞLARININ BƏZİ HELMİNTOZLARINA QARŞI ANTİHELMİNT TƏSİRLİ BİTKİLƏRİN TƏTBİQİ

Məmmədov E.N.
Naxçıvan Dövlət Universiteti
E-mail: etibarmemmedov@ndu.edu.az

Ev su quşlarında digər xəstəliklərlə yanaşı helmintozlara daha çox rast gəlinir ki, bunlar quşçuluğun inkişafına mane olmaqla, böyük iqtisadi zərərlərə səbəb olur. Körpə quşlar helmintozlara daha çox həssadırlar ki, bu da onların böyümə və inkişafını ləngitməklə, ciddi tələfat törədir. Araşdırmalarımızın məqsədi ev su quşlarının helmintozlarına qarşı 4 dərman bitkisinin: boymadərən (*Achillea millefolium* L.), dağ tərxunu (*Tanacetum vulgare*), baldırğan (*Heracleum sosnowskyi*) və yovşanın (*Artimisia absinthium* L.) antihelmint təsirini öyrənmək idi. Bu dərman bitkilərinin antihelmint təsirini hər birində on baş 3 aylıq ördək və qaz balası olan (5 ördək və 5 qaz), əvvəlcədən koproloji müayinələr əsasında helmintlərlə təbii yoluxduğu müəyyən edilmiş təcrübə qruplarında öyrənildi. Təcrübənin əvvəlində bütün qruplardakı quşlardan kal nümunələri götürüldü və Fulleborn üsulu ilə helmintoovoskopik müayinədən keçirildi. Birinci təcrübə qrupundakı quşlara 5 gün müddətində hər birinə fərdi qaydada 3 qram dozada boymadərənin ot unu, ikinci qrupdakı quşların hər birinə 3 qram dozada boymadərənin ot unu; üçüncü qrupda olan quşlara 3 qram dozada dağ tərxunu bitkisini ot unu və dördüncü qrupdakı quşlara isə 3 qram dozada yovşanın ot unu verildi. Beşinci, nəzarət qrupunda olan quşlar gündəlik yem rasionuna uyğun olaraq yemləndirildi. Təcrübə qruplarındakı quşlara bitkilərin ot unu göstərilən dozalarda 14-15 saatlıq aclıq pəhrizində saxladıqdan sonra səhər saatlarında fərdi qaydada verilmişdir. Bitki unları verildikdən sonra quşların klinik vəziyyətinə nəzarət edildi. Onların davranışında, hərəkətlərində yem və su qəbulunda nəzərəçarpacaq dəyişikliklər müşahidə edilməmişdir. Bütün təcrübənin aparıldığı günlərdə təcrübə və nəzarət qrupunda olan quşlar müqayisəli şəkildə vizual müşahidələrdən keçirildi, funksional dəyişikliklərə rast gəlinmədi. Təcrübə və nəzarət qrupundakı quşlardan kal nümunələri götürülərək helmint yumurta və sürfələrinin olub-olmaması yoxlanıldı. Dehelmintizasiyanın effektivliyi eksperimental və nəzarət qruplarından olan quşların kal nümunələrinin təcrübənin 5, 7 və 10-cu günlərində üç dəfə aparılmılş koproskopik müayinələrin nəticələrinə əsasən qiymətləndirilmişdir. Helmintoovoskopik müayinələrin nəticələrinə əsasən bitkilərin antihelmint səmərəsi müəyyən edilmişdir. Birinci təcrübə qrupunda boymadərən unundan istifadə edildikdən sonra 7 quşun helmintlərdən azad edildiyi və səmərəliliyin 70% olduğunu; ikinci eksperimental qrupda, baldırğanın otunun tətbiqindən sonra 3 quşun kalında helmint yumurtalarına rast gəlinmədi və səmərəliliyin 30% olduğunu müəyyən etdik. Digər, üçüncü qrupda, dağ tərxununun işlədilməsindən sonra 4 quşun (səmərələlilik 40%) və dördüncü qrupda yovşan ot unundan istifadə edildikdən sonra 6 baş quşun kalında helmint yumurtalarının olmadığı və səmərəliliyin 60%-ə çatdığı müəyyən olunmuşdur . Nəzarət qrupunda olan quşların kal nümunələrinin müayinəsində təcrübənin əvvəlində olduğu kimi helmintlərlə yoluxmanın 100% səviyyəsində qaldığı müşahidə edildi. Tədqiqatımızın nəticələri göstərir ki, boymadərən (*Achillea millefolium* L.) və acı yovşan (*Artimisia absinthium* L.) bitkiləri ev su quşlarının helmintozlarına qarşı yüksək antihelmint təsir göstərir. Təcrübələrin gedişində bitkilərin mümkün toksiki təsirlərini müəyyən etmək üçün eksperimental və nəzarət qruplarındakı quşlar kliniki müayinələrdən keçirildi. Quşlarda bütün klinik əlamətlər normal həddə idi və nəzarət qrupundakı quşlarının göstəricilərindən nəzərəçarpacaq dərəcədə fərqlənmirdi. Nəticə olaraq, perspektivdə hər iki bitki ev su quşlarında helmint invaziyalarına qarşı antihelmint vasitə kimi istifadə oluna bilər.